**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№347/5** **31 avqust 2022-ci il**

# “Haqsız rəqabətlə mübarizədə Qütb Ulduzumuz" kitabının nəşri barədə

Auditor fəaliyyətində haqsız rəqabətin aradan qaldırılması və səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, dempinq hallarının aradan qaldırılması, müstəqil auditə ictimai etimadın yüksəldilməsi və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla hazırlanmış “Haqsız rəqabətlə mübarizədə Qütb Ulduzumuz” kitabının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Haqsız rəqabətlə mübarizədə Qütb Ulduzumuz" kitabı bəyənilsin və 500 nüsxədə nəşri məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).

2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə tapşırılsın (R.Cəfərli) tapşırılsın ki, “Haqsız rəqabətlə mübarizədə Qütb Ulduzumuz" kitabı xidməti məqsədlərlə istifadə olunması və auditin təşkili, təbliği və təşviqi məqsədilə aidiyyəti qurumlara, Palatanın üzvlərinə, Palatanın struktur bölmələrinə və Palatanın Şurası yanında Komitələrə çatdırılmasını təmin etsin (siyahı əsasında).

3. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın 1-ci bəndindən irəli gələn məsələləri həll etsin.

4. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**